**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**İQTİSADİYYAT İNSTİTUTU**

**TANRIVERDİ PAŞA**

# AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏRİ BEYNƏLXALQ REYTİNQLƏRDƏ

**Analitik-statistik**
**BÜLLETEN**

**BAKI - 2024**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**İqtisadiyyat İnstitutunun**
**Elmi Şurasının qərarı ilə nəşr olunur**

**Elmi redaktor:** **AR ETN İqtisadiyyat İnstitutunun şöbə müdiri:**
**iqtisad elmləri doktoru R.S.Abdullayeva**

**Rəyçilər:** **AR ETN İqtisadiyyat İnstitutunun Elmi katibi,**
**iqtisad elmləri doktoru L.Ə.Allahverdiyeva**

**AR ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi,**
**i.f.d., dos. Ə.B.Sarıyev**

**Analitik-statistik BÜLLETEN** - Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının Beynəlxalq Reytinq Təşkilatlarının dünya ölkələr üzrə tərtib etdikləri ən vacib reytinq və indeks göstəricilərini əhatə edən məlumatların toplanılması və təhlili əsasında hazırlanmışdır.

Bülleten elmi işçilər, ali məktəb müəllimləri, magistr və doktorantlar, iqtisadçı ekspert və mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

**MÜNDƏRİCAT**


| | |
|---|---|
| ***İXTİSARLAR*** | **4** |
| **MÜƏLLİFDƏN** | **7** |
| **I. ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **14** |
| **II. AZƏRBAYCAN İQTİSADİYYATININ STRUKTURU** | **21** |
| **III. İNNOVASİYA TƏDBİRLƏRİ** | **24** |
| **IV. DÖVLƏT XƏRCLƏRİ VƏ VERGİLƏR** | **28** |
| **V. İNFRASTRUKTUR VƏ NƏQLİYYAT** | **34** |
| **VI. ENERJİ VƏ ƏTRAF MÜHİT** | **42** |
| **VII. NEFT EHTİYATLARI VƏ NEFT HASİLATI** | **49** |
| **VIII. TƏBİİ RESURSLAR** | **57** |
| **IX. KƏND TƏSƏRRÜFATI** | **60** |
| **X. BANK SİSTEMİNİN ƏLÇATANLIĞI VƏ DƏRİNLİYİ** | **68** |
| **XI. BANK SİSTEMİNİN SABİTLİYİ** | **76** |
| **XII. DEMOQRAFİYA** | **85** |
| **XII. İŞÇİ GÜVVƏSİ** | **90** |
| **XIV. BƏRABƏRSİZLİK VƏ YOXSULLUQ** | **93** |
| **XV.TƏHSİL** | **95** |
| **XVI. SƏHİYYƏ** | **102** |
| **XVII. UŞAQ VƏ ANA ÖLÜMÜ** | **112** |
| **XVIII. BEYNƏLXALQ TİCARƏT VƏ İNVESTİSİYALAR** | **116** |
| **XIX.TURİZM** | **126** |
| **XX. QLOBALLAŞMA** | **129** |
| **XXI. DÜNYA HƏCMİNDƏKİ PAYLAR** | **131** |
| **XXII. İDARƏETMƏ VƏ BİZNES MÜHİTİ** | **134** |
| **XXIII. İQTİSADİ AZADLIQ** | **138** |
| **XİV. BVF-in PROQNOZU** | **142** |
| **XXV. DÖVLƏTİN KÖVRƏKLİYİ İNDEKSİ** | **145** |
| **XXVI. DIGƏR GÖSTƏRİCİLƏR** | **155** |
| **ƏDƏBİYYAT** | **157** |
| **MÜƏLLİFİN BİOQRAFİYASI** | **159** |

# *İXTİSARLAR*

| Reytinq təşkilatı (azərb.) | Reytinq təşkilatı (ingiliscə və e-ünvanı) | Reytinq təşkilatı (qısa adı ing.) |
|---|---|---|
| Dünya Bankı (DB) | The World Bank (WB) *https://www.worldbank.org/en/home* | WB |
| Qlobal İnnovasiya İndeksi Kornell Universiteti | Cornell University, INSEAD, and WIPO *https://globaledge.msu.edu/global-resources/resource* | CU, INSEAD, WIPO |
| Birləşmiş Millətlər Təşkilatı (BMT) | United Nations *https://www.un.org/en/* | UN |
| Dünya İntellectual Mülikiyyət Təşkilatı (DİMT) | World Intellectual Property Organisation *https://www.uspto.gov/ip-policy/patent-policy /world-intellectual-property-organization* | WIPO |
| AR Mərkəzi Bankı (MB) | Central Bank of AR https://www.cbar.az/home?language=az | CBAR |
| Beynəlxalq Elektrik Rabitəsi İttifaqı (BERİ) | The International Telecommunication Union *https://www.itu.int/en/pages/default.aspx?lang=en* | ITU |
| Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT) | International Civil Aviation Organization *https://www.icao.int/* | İCAO |
| Fasiləsiz İnteqrasiya, (Fİ) | Continuous Integration *https://www.ibm.com/topics/continuous-integration* | Cİ |
| Beynəlxalq Avtomobil İstehsalçıları Təşkilatı (BAİT) | Organisation Internationale des Constructeurs d'Automobiles *https://www.oica.net/* | OİCA |
| Dünya İqtisadi Forumu (DİF) | The World Economic Forum *https://www.weforum.org/* | WEF |
| Almaniya Beynəlxalq Əməkdaşlıq Agentliyi (ABƏA) | Deutsche Gesellschaft für Internationale Zusammenarbeit *https://www.giz.de/de/html/index.html* | GİZ |
| Beynəlxalq Enerji Agentliyi (BEA) | The International Energy Agency *https://www.iea.org* | İEA |
| ABŞ Energetik İnformasiya İdarəsi (Eİİ) | U.S Energy Information Administration *https://www.eia.gov* | EIA |
| Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (ƏKTT) | Food and Agriculture Organization *www.fao.org/home/en* | FAO |
| Beynəlxalq Valyuta Fondu (BVF) | The International Monetary Fund *https://www.imf.org* | IMF |

| | | |
|---|---|---|
| Bankscope | Bankscope *https://www.theasianbanker.com/edm/Bankscope_edm5Jan/BvD_Final.html* | Bankscope |
| Maliyyə İnkişafı üzrə Qlobal Baza (MİQB) | Global Financial Development Database *https://www.worldbank.org/en/publication/gfdr/data/global-financial-development-database* | GFDD |
| Dünya Birjalar Federasiyası (DBF) | The World Federation of Exchanges *https://www.world-exchanges.org/* | WFE |
| İsveçrə Re (İRe) | Swiss Re *https://www.companieshistory.com/swiss-re/* | Swiss Re |
| BMT Əhali Şöbəsi | United Nations Population Division https://population.un.org/wpp/ | UNPD |
| Beynəlxalq Diabet Federasiyası (BDF) | The International Diabetes Federation *https://idf.org/* | IDF |
| Dünya Səhiyyə Təşkilatı (DST) | World Health Organization *https://www.who.int/* | WHO |
| Dünya Səhiyyə Təşkilatı/Beynəlxalq Fövqəladə Uşaq Fondu (DST/BFUF) | United Nations Children's Fund, United Nations International Children's Emergency Fund *https://www.who.int/teams/immunization-vaccines* | WHO/UNICEF |
| Beynəlxalq Fövqəladə Uşaq Fondu (BFUF) | United Nations Children's Fund *https://www.unicef.org* | UNICEF |
| İqtisadi Əməkdaşlıq bə İnkişaf Təşkilatı (İƏİT) | Organisation for Economic Co-ope-ration and Development *https://www.oecd.org/* | OECD |
| Təhsil, Elm və Mədəniyyət üzrə Millətlər Təşkilatı (TEMMT) | The United Nations Educational, Scientific and Cultural Organization *https://www.unesco.org/en* | UNESCO |
| İsveçrə Sürix Ali Texniki Məktəbi (İSATM) | The Swiss Institute of Technology in Zurich *https://ethz.ch/en.html* | ETH Zurich |
| Freedom Hous (FH) | The Freedom House *https://freedomhouse.org/* | FH |
| Transparensi Interneşnl (Tİ) | Transparency International *https://www.transparency.org/en/index* | Tİ |
| Heritaje Fondu (HF) | The Heritage Foundation *https://www.heritage.org* | HF |
| BMT Narkotiklər və Cinayətlər üzrə İdarəsi (BMTNCU) | The UN office on drugs and crime *https://www.unodc.org/unodc/en/index.html* | UNODC |
| Klayn Demokratiya Mərkəzi (KDM) | The Cline Center for Democracy *http://www.brin.ac.uk/tag/cline-center-for-democracy/* | CCD |

| | | |
|---|---|---|
| Dünyada Xoşbəxtlik üzrə Məruzə DXM) | The World Happiness Report *https://ajjain-uiuc.github.io/* | WHR |
| ABŞ Geoloji Xidməti (GX) | The United States Geological *https://www.usgs.gov/* | USGS |
| Dünya Turizm Təşkilatı (DTT) | The United Nations World Tourism Organization *https://www.unwto.org/* | UNWTO |
| Dünya Sülh Fondu (DSF) | World Peace Foundation *https://sites.tufts.edu/wpf/* | WPF |
| Stokholm Beynəlxalq Sülh Probleməri Tədqiqatları İnstitutu (SBSPTİ) | Stockholm International Peace Research Institute *https://www.sipri.org/* | SIPRI |
| Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu (BSTİ) | The International Institute for Strategic Studies iiss.org *https://www.iiss.org/* | IISS |
| Dünyada Xoşbəxtlik üzrə Məruzə (DXM) | The World Happiness Report *https://worldhappiness.report/* | WHR |
| Qeyri-Formal İqtisadiyyat üzrə baza məlumatları | Shadow economy *https://www.theglobaleconomy.com/rankings/shadow_economy/* Informal economy, MIMIC method *https://www.theglobaleconomy.com/rankings/informal_economy_mimic/* Informal economy, DGE method *https://www.theglobaleconomy.com/rankings/informal_economy_dge/* | İE |

## MÜƏLLİFDƏN

Dünya ölkələrinin sosial-iqtisadi inkişafının həqiqi mənzərəsinin verilməsi, digər ölkələrlə müqayisədə dünya iqtisadiyyatında nüfuz dərəcəsinin, nisbi əhəmiyyətinin, yerinin, çəkisinin, mövqeyinin müəyyən edilməsi, hərtərəfli və müqayisəli təhlillərin, sanballı elmi tədqiqatların aparılması, sosial-iqtisadi inkişafın real ölçülməsi və qiymətləndirilməsi Beynəlxalq reytinq təşkilatlarının tərtib etdiyi reytinq məlumatlarından istifadə etmədən mümkün deyildir.

***Reytinq*** (ing. Rating - sıralama, reytinqləri, düzülmə) müəssisə, təşkilat və ya fərdlərin müəyyən reytinqləri parametrlərinə və verilmiş sıralama şkalası və prioritetləri üzrə bu kateqoriyadan olan digər subyektlərlə müqayisədə nüfuz dərəcəsinin, nisbi əhəmiyyətinin, yerinin, çəkisinin, mövqeyinin qiymətləndirilməsi, dərəcələndirilməsi və düzülməsini əks etdirən say göstəricisidir.[1] Bu göstəricinin dərəcəsi və ardıcıllığı müəyyən ekspertlərin səsverməsi və ya sosioloji sorğu məlumatları əsasında ədədi şkaladan istifadə etməklə müəyyənləşdirilir və daha yüksək reytinq siyahısı ardıcıllıqla düzülür. Adətən bu sıralamada qiymətlər bəzən əmsalla (balla), daha çox faizlə ifadə olunur.

***İndeks*** (göstərici, ing. Index) – müəyyən dövr ərzində iqtisadi və sosial proseslərin göstəricilərinin dəyişməsini nisbi şəkildə səciyyələndirən, müqayisə üçün əsas qəbul edilmiş digər səviyyəsinə nisbəti kimi dinamikada hesablanan iqtisadi və statistik göstəricidir. İndekslərin düzgün qurulmasında əsas məsələ indeksləşdirilən məcmuya daxil edilən hər bir qrup üçün çəkilərin seçilməsi və onların dəqiq hesablanmasıdır.[2] Seçilən çəkilər indeksləşdirilən sosial-iqtisadi obyektin strukturunu dəqiq əks etdirməlidir.

Reytinq təşkilatları dünya iqtisadiyyatının ən vacib təşkilatlarından biridir. Onların təyin etdiyi reytinqlər ciddi araşdırmalarla müşayiət olunan mürəkkəb və çətin tədqiqat fəaliyyətidir. Beynəlxalq reytinq təşkilatlarının mütəxəssisləri və müstəqil ekspertlər tərəfindən ölkələrə verilən reytinqlər ictimai həyatın, o cümlədən iqtisadiyyatın müxtəlif sahələrini müqayisə etməyə kömək edir, eyni zamanda həmin ölkə ilə əməkdaşlıq edəcək ölkə və şirkətlərə tərəfdaş ölkənin biznes və investisiya mühitini daha obyektiv tanımağa, hansı ölkəyə investisiya yatırmağın faydalı olacağına zəmanət verir.

Hazırda müasir dünyanı investisiyasız təsəvvür etmək mümkün deyildir. Reytinq təşkilatları investorlara daha etibarlı şirkətlərə sərmayə qoymalarına və rəqabət qabiliyyəti olmayan şirkətlərin iqtisadiyyatdan sıxışdırılaraq bazarda daha güclü oyunçuların qalmasına şərait yaradır. Onların hər biri çoxillik təcrübəyə malik, dünyanın

---

[1] Рейтинг - экономическая этимология ->: www. ecanet.ru > word >: riarating.ru > docs > about > about

[2] www.hi-edu.ru > e-books > xbook096 >: www.ekonomika-st.ru > drugie >

istənilən müəssisəsinin fəaliyyətini istər rəsmi, istərsə də qeyri-rəsmi, bəzən hesabat təqdim edilmədən belə araşdırmağı bacaran yüzlərlə analitik mütəxəsislərə malikdir. Belə agentliklər olmadan, dünya iqtisadiyyatının hər hansı bir subyektinə qiymət vermək mümkün olmazdı və ya bu işin dövlət səviyyəsində qiymətləndirilməsinə uzun illər lazım gələrdi. Reytinqlər sayəsində investorlar yatırım imkanları haqqında müstəqil rəylər əldə edir, riskləri azaltmaq və qiymətli kağızları gəlirlilik və riskin nisbəti baxımından daha obyektiv müqayisə etmək imkanı qazanırlar. Məhz buna görə də, reytinq təşkilatları dünya iqtisadiyyatının ən vacib mexanizmi kimi öz mövqelərini daha da gücləndirməkdədirlər və bunun uzun illər də davam edəcəyinə şübhə yoxdur.

2008-ci ildən sonra baş verən qlobal böhranın təhlili göstərir ki, dünyanın əksər reytinq təşkilatlarının emitentlərə və qiymətli kağızlara yüksək reytinqlər təyin etmələrinə baxmayaraq, həmin dövrə aid təyin edilən reytinqlər həqiqi vəziyyətdən çox uzaq idi. Emitentlərə verilən yüksək reytinqlər onlara öz qiymətli kağızlarını və səhmlərini daha geniş investor dairəsinə təklif etməyə imkanı verməklə faiz dərəcələrini də azaldır, həmçinin borcalanı daha məşhur edir, onun işgüzar nüfuzunu artırırdı. Reytinqlər sayəsində investorlar pul yatırma imkanları haqqında müstəqil rəylər əldə edir, riskləri azaltmaq və qiymətli kağızları gəlirlilik və riskin nisbəti baxımından daha obyektiv müqayisə etmək imkanı qazanırdı. Buna baxmayaraq, reytinq təşkilatlarının məlumatları bəzən gecikmiş olur, həqiqi vəziyyət haqqında mənzərəni tam təsvir etmirdi.

Dünyada baş verən böhranların nəticələri, xüsusilə Amerika daşınmaz əmlak bazarında başlayan panika ilə dünya maliyyə böhranın yaranmasında xeyli rolu olan, ciddi maliyyə çətinlikləri qarşısında olan bir sıra şirkət və kompaniyalara yüksək investisiya reytinqləri verilməsi məlum olduqdan sonra reytinq təşkilatlarının fəaliyyəti daha ciddi tənqid olunmağa başladı. Təşkilatları uğursuzluğunun əsas səbəbləri kimi: hadisələrə ləng reaksiya, istifadə edilən metodologiyadakı qüsurlar, təşkilatların özləri arasında rəqabət, istifadə olunan fərziyyələr, həmçinin reytinq təyin edərkən xidmət haqqını ödəyən, müsbət reytinqlərdə marağı olan hökumət və müştəri şirkətlərlə agentliklər arasında bəzən sövdələşmələrə getmələri idi. Həm də onu da nəzərə almaq lazımdır ki, reytinqlər gələcəkdə borcalan üçün vacib ola biləcək bir sıra digər amilləri, məsələn, iqtisadi konyunkturdakı dəyişiklikləri və ya mövcud likvidliklə bağlı problemləri əks etdirmirdi. Məhz bunun nəticəsidir ki, ABŞ reytinqlərə görə investisiya qərarlarından asılılığı azaltmaq üçün qanunvericilikdə dəyişikliklər etmişdir.

Reytinq təşkilatları üzərinə hər hansı bir zəmanət götürmür və reytinq təyin etmə üsulu haqqında kiməsə məlumat vermək öhdəliyi daşımır. Əksər hallarda sifarişçi müştəri kimi maliyyə sahəsində fəaliyyət göstərən müxtəlif ölkələr və şirkətlər çıxış edir. Tanınmış agentliklərdən birinin reytinqinə malik olan şirkətlər və ölkələr dünyada və öz ölkəsində

investorlar arasında daha mötəbər tərəfdaş sayılır və təbii bu reytinq onlara daha çox pul qazanmaq imkanı verir.

Tarixi olaraq, reytinq şirkətlərinin hamısı ABŞ-da beynəlxalq səviyyədə qeydiyyatdan keçmişdir. Bu, ABŞ-ın investisiya fondlarının dünya kapital bazarında ən böyük iştirakçı olması ilə bağlıdır. Reytinq təşkilatları kommersiya şirkətləri olsa da, onların yaradılması təşəbbüskarları daha çox dövlətlər olur. Birgə təsisçilər olaraq, həm də konsaltinq şirkətləri, informasiya təşkilatları və maliyyə institutları daxil edilir. Reytinq təşkilatlarının tam müstəqilliyini təmin etmək üçün onların fəaliyyəti üzərində nəzarət iştirakçılar arasında elə bölüşdürülür ki, heç kəs ən vacib qərarların qəbulunda həlledici səsə və ya şirkətin rəhbərliyinə təsir göstərmək imkanına malik olmasın.

Dünyada hazırda təxminən 100-ə yaxın reytinq təşkilatı var.[3] Onlar beynəlxalq və milli təsisatlar kimi fəaliyyət göstərir. Dünyada ən çox tanınan və qəbul edilən əsas reytinq təşkilatları: *Fitch Ratings agentliyi; Moody's Rating Agentliyi; Standard & Poor's Rating Agentliyi; S&P Ratings agentliyi;* "Heritage Foundation"; *DBRS reytinq Agentliyi; A.M. Best Company Reytinq Agentliyi; Morningstar Reytinq Agentliyi* hesab olunur.

*Fitch Ratings Agentliyin*in - əsası 1913-cü ildə maliyyə statistikasının nəşri ilə qoyulmuşdur. Vaxt keçdikcə bu agentlik dünya miqyasında mötəbər və etibarlı, müstəqil reytinq agentliyinə çevrilmişdi. Hazırda Fitch Ratings agentliyinin dünyanın 50- dən çox ölkəsində təxminən iki min işçisi var. Fitch Ratings agetliyi və 150-dən çox ölkədə kapital bazarlarını təhlil edir, kredit reytinqi və müstəqil analitik tədqiqatlar təqdim edir. Fitch Ratingsin baş ofisi London və Nyu-Yorkda yerləşir. Fitch Ratings qrupuna: Fitch Solutions (fəaliyyət istiqaməti - Fitch Ratings məhsullarının və xidmətlərinin bölüşdürülməsi, eləcə də analitik və informativ materiallar təqdim edilməsinndən ibarət) və Algorithmics (şirkətlərdə risklərin idarə edilməsi həlləri üzrə lider təşkilat) daxildir. Fitch Ratings qrupunun əsas səhm payı Fimalac S.A-ya məxsusdur. Fitch Ratings agentliyi Birləşmiş Ştatların Milli Qiymətli Kağızlar və Valyuta Komissiyası tərəfindən tanınmış və NRSRO tərəfindən lisenziyalaşdırılan ilk şirkətdir. Bu agentlik, iki vacib reytinqlə: emitentlərin qısamüddətli və uzunmüddətli defolt reytinqi (qısaldılmış RED) ilə məşhurdur.

*Moody's* - beynəlxalq reytinq agentliyi kimi emitentlərə və onların qiymətli kağızlarına müstəqil qiymət və kredit reytinqi verir. Moody's borc borclarının, idarəetmə fondlarının, inzibatçılığın (həm regional, həm də yerli), hökumətlərin keyfiyyətini qiymətləndirir. Agentlik 110 dövlətin, beynəlxalq təşkilatın kapital bazarlarında müstəqil təhlil apardığını da xüsusi qeyd etmək lazımdır. Bundan əlavə, Moody's Rating Şirkəti

[3] www.cbr.ru > finmarket> supervision> svra: www.sravni.ru> Энциклопедия>

strukturlaşdırılmış maliyyələşdirmə reytinqlərini də təqdim edir. Agentlik 4500 nəfərlik daimi ekspert heyətinə malikdir. Agentliyk dünyanın müxtəlif ölkələrində 26-dan çox nümayəndəliyə malikdir. Agentliyin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, reytinqlər hesablandıqdan sonra bu və ya digər şirkətlə yeni müqavilənin bağlanma müddətini də razılaşdırır. Bu müddət başa çatdıqdan sonra Moodys, əvvəlcədən təyin edilmiş reytinqi dəyişir və ya eyni qiymətdə saxlayır. Əgər şirkət müştəri Moody's ilə ilk dəfə əməkdaşlıq edirsə, bu halda, ekspert qrupu təhlil üçün tələb olunan sənədlərin siyahısını nəzərdən keçirmək və tanış olmaq üçün müştəri şirkətin rəhbərliyi ilə ilkin görüş keçirir.

*Standard & Poor's* - dünya bazarlarına ən böyük təsir göstərən üç beynəlxalq reytinq agentliyindən biridir. Standard & Poor's 150 ildən artıqdır ki, iş başındadır. Bu şirkət daha çox kredit reytinqlərinin verilməsi, fond bazarı göstəricilərinin redaktə edilməsi, həmçinin risklərin idarə edilməsi sahəsində araşdırmalar aparılması ilə məşğuldur.

*S&P Ratings agentliyi* - McGraw Hill Corporasiyasının törəmə şirkətidir. Bu korporasiyanın fəaliyyəti dünya maliyyə bazarının təhlili və araşdırılması ilə bağlıdır. *S & P* - korporasiyalara, ölkələrin hökumətlərinə, müxtəlif qurumlara, maliyyə institutlarına, fondlara və ya ayrı-ayrı fərdlərə borc öhdəliyinə müvafiq uzunmüddətli və qısamüddətli kredit reytinqləri verir. S & P reytinq verərkən, hər bir ölkə üçün ayrıca yaradılan beynəlxalq və milli reytinq şkalalarından istifadə edir. Moody's Investors Service Moody's şirkətinin Baş şirkətidir.

Dünyanın aparıcı analitik mərkəzlərindən hesab olunan "Heritage Foundation" institutu və "The Wall Street Journal" nəşri tərəfindən hazırlanan İqtisadi Azadlıq İndeksi 27 ildir tərtib edilir. Heritage Fondunun əsas missiyası azad sahibkarlıq, dövlətin məhdud rolu, fərdi azadlıq, ənənəvi Amerikan dəyərləri və güclü milli müdafiə prinsiplərinə əsaslanan mühafizəkar dövlət siyasətinin formalaşdırılması və təbliğidir. Bu missiyanı yerinə yetirmək üçün Fond əsas siyasət məsələləri ətrafında dövrə uyğun və etibarlı tədqiqatlar həyata keçirir və tədqiqat nəticələrinin Konqress üzvləri, Konqressin işçi heyəti, icra aparatındakı siyasət qərarlarını qəbul edən şəxslər, KİV və akademik və siyasi dairələrə çatdırılmasını təmin edir.

"Heritage Foundation" kifayət qədər nüfuzlu və hesabatları ilə qlobal investorların diqqətini cəlb edən fondlardan biridir və onların açıqladığı hesabatlar hər zaman investorların diqqət mərkəzində olur. İqtisadi azadlığına görə Azərbaycan azadlıq dərəcəsi 60-70 faiz olan ölkələr sırasındadır. Bu, ölkəmiz üçün kifayət qədər müsbət haldır.

Ölkə iqtisadiyyatı həqiqətən də azaddırsa, insanlar belə ölkədə azad surətdə işləmək, gəlir əldə etmək, onu istehlak və ya yığıma yönəltmək, sahibkarlar isə sərbəst olaraq mal

və xidmətlər istehsal etmək, investisiya qoymaq imkanına malik olur və həm də bu zaman dövlət işçi qüvvəsi, kapital və məhsulların sərbəst dövriyyəsinə mane olmur.

İstənilən halda, Beynəlxalq reytinqlərin inkar edilməsi və ya onların hesabatlarına biganə yanaşılması yolverilməzdir. Bəzən, müəyyən qüsurları olsa da, bu reytinqlər, ən azı bütün dünya ölkələrindəki dəyişikliklərin dinamikasını izləməyə imkan verir və dünyanın bütün sivil ölkələri bu məlumatları nəzərə alır. Onu da nəzərə almaq lazımdır ki, hər hansı bazara çıxmaq istəyən böyük investorlar həmişə əvvəlcədən belə araşdırmaları nüfuzlu reytinq təşkilatlarına sifariş verirlər və bu cür araşdırmaların nəticələrinə daha çox etibar edirlər.

Reytinqlərin təyin edilməsi mürəkkəb və çətin tədqiqat fəaliyyətidir. Reytinq təşkilatları maliyyə sabitliyi, ödəmə qabiliyyəti, əmlakın vəziyyəti, gəlirlilik və biznes fəaliyyəti kimi bir çox dəyişənləri qiymətləndirilir. Beynəlxalq reytinq təşkilatları bu və ya digər iqtisadi və maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün müxtəlif metodlardan istifadə edirlər. Bu, müəyyən bir borc öhdəlikləri daşıyan emitentə reytinqin müxtəlif yollarla təyin edilməsi ilə bağlıdır. Məhz bu səbəbdən, təcrübəli investorlar öz təhlilində yalnız bir reytinq agentliyinin göstəricilərinə istinad etmirlər. Beynəlxalq reytinq təşkilatları ilk növbədə, emitentin borc öhdəliyinin ödənilməməsi riski və onun faiz dərəcəsinə, borc öhdəliklərinin dəyərinə və gəlirliliyinə təsir göstərən ödəmə qabiliyyətliliyini qiymətləndirirlər. Bu zaman, verilən daha yüksək reytinq ödəməmə riskinin daha az olduğunu ifadə edir.

Reytinq təşkilatlarının maliyyələşdirilməsinin əsas mənbəyi belə reytinqlərə ehtiyacı olan emitentlərdir. Onlar borc öhdəlikləri ilə bağlı öz imkanlarını və mövcud kredit reytinqlərini necə təkmilləşdirmək barədə məsləhət almaq üçün illik haqq ödəyirlər. Deməli, reytinq təşkilatlarının fəaliyyətində həm emitentlər, həm də investorlar eyni dərəcədə maraqlıdırlar. Birincilər daha əlverişli maliyyələşdirmə şərtləri əldə etmək üçün reytinqlərdə daha yüksək mövqe tutmaqda, ikincilər isə kredit reytinqlərini verən təşkilatların məlumatlarının dürüstlüyündə maraqlıdırlar. Ödəməni bilavasitə emitentlər etdiyindən, onlarla reytinq təşkilatları arasında qeyri-rəsmi sövdələşmələlər ola bilər. Belə bir biznes modeli fəal şəkildə tənqid olunsa da, hazırda bunu əvəz edəcək heç bir real alternativ yoxdur. Buna görə reytinq təşkilatları qlobal iqtisadiyyatda əhəmiyyətli rol oynayacaqlar, çünki onların səhvlərini sübut etmək də, imkansızdır və hazırda onları əvəz edəcək başqa bir qurum da görünmür.

Hazırda Azərbaycan Respublikasının azad mal və xidmətlər, kapital və işçi qüvvəsi ilə dünya iqtisadiyyatına inteqrasiya olunması ilə yanaşı inkişaf etmiş iqtisadiyyatla bazara səmtlənmiş dövlət tənzimlənməsi sisteminin və sosial infrastrukturun mövcudluğu da

ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmlənməsi üçün kifayət qədər önəmli amildir.

Təsadüfi deyil ki, Azərbaycan hökuməti də Beynəlxalq reytinq təşkilatları ilə ciddi əməkdaşlıq edir və onların ekspert və mütəxəssislərinin tövsiyələri daima nəzərə alınır. Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların qiymətləndirilməsinin bütöv və müstəqil sistemini formalaşdırmaq, ölkənin Beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması üçün Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 13 iyul tarixli sərəncam imzalamış və həmin sərəncamın həyata keçirilməsinə dair 2 iyun 2017-ci il tarixində Tədbirlər Planı təsdiq etmişdir. Bu sərəncamlarda Azərbaycan hökuməti və onun ayrı-ayrı blokları üçün əsas vəzifələr müəyyən edilmişdir. Sərəncamda müəyyən edilən vəzifələrin icrası və məsuliyyəti daha çox Azərbaycanın iqtisadi idaretmə blokuna daxil olan Nazirlik, Komitə və digər hökumət qurumlarına aid edilmişdir. Məhz belə əməkdaşlığın və ciddi elmi araşdırmaların nəticəsidir ki, Azərbaycan beynəlxalq reytinqlərinin ən vacibləri üzrə mövqeyini ildən ilə yaxşılaşdırır.

Əksər beynəlxalq reytinq təşkilatları tərəfindən hər il ardıcıllıqla ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət qiymətləndirmələri təbii ki, təsadüfi deyil. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumları ölkəmizin iqtisadi inkişaf modelini yüksək Qiymətləndirir. Ən əsası Azərbaycan ən islahatçı ölkə kimi mövqeyini möhkəmləndirir. Təkcə Dünya Bankının ayrı-ayrı illər üzrə hesabatlarına diqqət yetirsək, görərik ki, Azərbaycanın qərarlaşdığı yerlərdə dəyişikliklər həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlarının davamlılığına, islahatların zamanın tələbinə uyğun təkmilləşdiyinə əsaslanır.

Bütün hesabatlarda Azərbaycanın reytinqlərinin yüksəlməsini müşahidə edirik. Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətə davamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq təşkilatlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir. Bu hesabatlar bir daha təsdiqləyir ki, iqtisadi cəhətdən azad olan Azərbaycanda əlverişli biznes, investisiya mühiti mövcuddur. Biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir.

Son illərdə aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyinin dayanıqlı olması iqtisadi artım üçün də şərait yaradıb, xüsusilə, qeyri-neft sektorunda

əhəmiyyətli artım əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznesin bütün sahələri, xüsusilə maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, xarici ticarətin liberallaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişlər baş verib. Dövlət büdcəsi və tədiyyə balansında trendlər müsbətdir, strateji valyuta ehtiyatları ÜDM-in 80 faizindən artığını təşkil etdiyi halda, xarici borc ÜDM-in 20 faizindən də azdır. Manatın məzənnə sabitliyi və inflyasiyanın aşağı həddi təmin edilib. Bütün bu islahatlar təbii ki, beynəlxalq reytinq təşkilatlarının hər il açıqladıqları hesabatlarda da öz əksini tapır və inkişafa verilən qiymətlərdə də əks olunur.

## I. ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İqtisadi artım: Real ÜDM-in artım tempi, faizlə | 2,75 | 1,09 | -3,10 | 0,20 | 1,50 | 2,50 | -4,30 | 5,60 | 4,62 |
| Ümumi daxili məhsul, mlrd. ABŞ dolları 2010 | 52,50 | 53,10 | 51,40 | 51,50 | 52,30 | 53,60 | 51,30 | 54,20 | 56,7 |
| Ümumi daxili məhsul, mlrd. ABŞ dolları | 75,24 | 53,08 | 37,87 | 40,87 | 47,11 | 48,17 | 42,69 | 54,83 | 78,72 |
| Adambaşına düşən ÜDM, cari qiymətlərlə dollar | 7891,3 | 5500,5 | 3880,7 | 4147,1 | 4739,8 | 4805,8 | 4229,9 | 5408,1 | 7736,7 |
| Adambaşına ÜDM, alıcılıq qabiliyyəti pariteti, dollar | 14868 | 14853 | 14232 | 14121 | 14210 | 14442 | 13727 | 14434 | 15045 |
| Adambaşına ÜDM, 2010-cu il dolların dəyişməz məzənnəsi ilə | 5506,0 | 5500,5 | 5270,7 | 5229,7 | 5262,4 | 5348,5 | 5083,6 | 5345,4 | 5571,73 |
| Kapital qoyuluşu ÜDM-də payı, faizlə | 27,51 | 27,91 | 25,68 | 24,38 | 20,13 | 20,31 | 23,67 | 17,08 | 12,65 |
| Kapital qoyuluşu, mlrd. ABŞ dolları | 20,70 | 14,82 | 9,72 | 9,96 | 9,48 | 9,79 | 10,10 | 9,36 | 9,95 |
| Ev təsərrüfatlarının istehlakı ÜDM-də payı, faizlə | - | 56,69 | 58,71 | 57,59 | 54,14 | 57,51 | 60,89 | 52,36 | 43,40 |
| Ev təsərrüfatlarının istehlakı, mlrd. ABŞ dolları | - | 30,09 | 22,23 | 23,53 | 25,51 | 27,70 | 25,99 | 28,71 | 34,16 |
| İnflyasiya: İstehlak qiymətləri indeksində faiz dəyişikliyi | - | 4,00 | 12,40 | 12,90 | 2,30 | 2,60 | 2,80 | 6,70 | 13,90 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Kölgə iqtisadiyyatının ÜDM-də payı, faizlə | 42,15 | 43,66 | 52,19 | - | - | - | - | - | - |

| | **Azərbaycan** | | **Gürcüstan** | | **Ermənistan** | | **İl** | **Reytinq təşkilatı** |
|---|---|---|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə** | **Sıralama** | **Qiymətləndirmə** | **Sıralama** | **Qiymətləndirmə** | **Sıralama** | | |
| İqtisadi artım: Real ÜDM-in artım tempi, faizlə | 4,62 | 75 | 10,11 | 12 | 12,6 | 6 | 2022 | WB |
| Ümumi daxili məhsul, mlrd. ABŞ dolları 2010 | 56,7 | 83 | 20,1 | 111 | 14,2 | 127 | 2022 | WB |
| Ümumi daxili məhsul, mlrd. ABŞ dolları | 78,72 | 72 | 24,61 | 108 | 19,5 | 116 | 2022 | WB |
| Adambaşına düşən ÜDM, cari qiymətlərlə dollar | 7736,7 | 82 | 6627,71 | 93 | 7014,21 | 86 | 2022 | WB |
| Adambaşına ÜDM, alıcılıq qabiliyyəti pariteti, dollar | 15045 | 85 | 17034 | 76 | 16042 | 78 | 2022 | WB |
| Adambaşına ÜDM, 2010-cu il dolların dəyişməz məzənnəsi ilə | 5571,73 | 93 | 5424,58 | 96 | 5111,37 | 100 | 2022 | WB |
| Kapital qoyuluşu ÜDM-də payı, faizlə | - | - | - | - | - | - | 2022 | WB |
| Kapital qoyuluşu, mlrd. ABŞ dolları | - | - | - | - | - | - | 2022 | WB |
| Ev təsərrüfatlarının istehlakı ÜDM-də payı, faizlə | 12,65 | 120 | 20,71 | 87 | 19,4 | 95 | 2022 | WB |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ev təsərrüfatlarının istehlakı, mlrd. ABŞ dolları | 9,95 | 76 | 5,09 | 90 | 3,78 | 98 | 2022 | WB |
| İnflyasiya: İstehlak qiymətləri indeksində faiz dəyişikliyi | 43,4 | 112 | 76,86 | 20 | 68,97 | 42 | 2022 | WB |
| Kölgə iqtisadiyyatının ÜDM-də payı, faizlə | 34,16 | 71 | 18,91 | 84 | 13,45 | 91 | 2022 | WB |
| İqtisadi artım: Real ÜDM-in artım tempi, faizlə | 13,90 | 30 | 11,90 | 38 | 8,6 | 66 | 2022 | WB |
| Ümumi daxili məhsul, mlrd. ABŞ dolları 2010 | 52,19 | 11 | 64,87 | 1 | 42,59 | 34 | 2020 | İMF |







***İqtisadi artım: Real ÜDM-in artım tempi, faizlə*** – 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycanın orta artım tempi 1,21 faiz, 2020-ci ildə ən aşağı - 4,3 faiz, 2021-cı ildə isə ən yüksək - 5,6 faiz, 2022-ci ildə isə 4,62 faiz təşkil etmişdir. Müqayisə üçün, 2022-ci ildə 178 ölkədə qlobal orta göstərici - 5,26 faiz, Ermənistanda 12,6 faiz, Gürcüstanda 10,11 faiz təşkil etmişdir.







***Ümumi daxili məhsul, mlrd. ABŞ dolları = 2010*** - 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycanda orta illik ÜDM 52,96 mlrd. dollar, 2020-ci ildə ən aşağı göstərici 51,3 mlrd. dollar, 2021-ci ildə isə 54,2 mlrd. dollar, 2022-ci ildə 56,7 mlrd. dollar olub. Müqayisə üçün, 2021-ci ildə 178 ölkə üzrə qlobal orta göstərici - 464,6 mlrd. dollar, 2022-ci ildə 178 ölkə üzrə 496,6 mlrd. dollar, Gürcüstanda 20,1 mlrd. dollar, Ermənistanda isə14,2 mlrd. dollar təşkil edib.

***Ümumi daxili məhsul, mlrd. ABŞ dolları*** – 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə orta illik ÜDM 53,18 mlrd. ABŞ dolları, ən aşağı - 2016-cı ildə 37,87 mlrd. ABŞ dolları, ən yüksək - 2022-ci ildə 78,72 mlrd. dollar olub. Müqayisə üçün, 2021-ci ildə 186 ölkə üzrə qlobal orta göstərici - 510,60 mlrd. dollar, 2022-ci ildə isə 178 ölkə üzrə 556,48 mlrd. dollar, Gürcüstanda 24,61 mlrd. dollar, Ermənistanda 19,5 mlrd. dollar təşkil edib.







***Adambaşına düşən ÜDM, cari qiymətlərlə dollar*** – 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə adambaşına düşən orta illik ÜDM 5371,1 ABŞ dolları, ən aşağı - 2016-cı ildə 3880,7 dollar, ən yüksək isə 2014-cü ildə - 7891,31 dollar, 2021-ci ildə isə 5388 ABŞ dollar, 2022-ci ildə 7736,7 dollar olub. Müqayisə üçün, 2021-ci ildə 186 ölkə üzrə qlobal orta qiymət 17937,03 dollar, 2022-ci

ildə 178 ölkə üzrə 17536,15 dollar, Ermənistanda 7014,21 dollar, Gürcüstanda isə 6627,71 dollar təşkil edib.

***Adambaşına ÜDM, alıcılıq qabiliyyəti paritet**i dollar* - 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə adambaşına düşən AQP ilə orta illik ÜDM 14436,89 ABŞ dolları, ən aşağı - 2020-cı ildə 13727,0 dollar, ən yüksək 2014-cü ildə - 14868,0 dollar, 2021-ci ildə 14432,0 dollar, 2022-ci ildə isə 15045 dollar olub. Müqayisə üçün, 2021-ci ildə 182 ölkə üzrə qlobal orta qiymət 21283,47 dollar, 2022-ci ildə isə 177 ölkə üzrə 22409,6 dollar, Gürcüstanda 17034 dollar, Ermənistanda isə 16042 dollar təşkil edib.

***Adambaşına ÜDM, 2010-cu ilin dolların dəyişməz məzənnəsi ilə*** - 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə adambaşına düşən sabit dollarla orta illik ÜDM 5346,50 ABŞ dolları, ən aşağı - 2020-cı ildə 5083,4 dollar, ən yüksək 2014-cü ildə - 5506,0 dollar, 2021-ci ildə isə 5344,4 dollar, 2022-ci ildə 5571,73 olub. Müqayisə üçün, 2021-ci ildə 184 ölkə üzrə qlobal orta göstərici - 15605,8 dollar, 2022-ci ildə isə 178 ölkə üzrə 15308,01 dollar, Gürcüstanda 5424,58 dollar, Ermənistanda isə 5111,37 dollar təşkil edib.







***Kapital qoyuluşları, ÜDM-də payı %-lə*** - 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə orta göstərici - 22,15 faiz, 2022-ci ildə ən aşağı - 12,65 faiz, 2015-ci ildə isə ən yüksək - 27,91 faiz olub. Müqayisə üçün, 2022-ci ildə 124 ölkədə qlobal orta göstərici - 24,85 faiz, Gürcüstanda 20,71 faiz Ermənistanda isə19,4 faiz təşkil edib.

***Ev təsərrüfatlarının istehlakı ÜDM-də payı, faizlə*** - 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə orta göstərici - 55,16 faiz, 2022-ci ildə ən aşağı - 43,4 faiz, 2020-ci ildə isə ən yüksək - 60,89 faiz olub. Müqayisə üçün, bu göstərici: Gürcüstanda 76,86 faiz, Ermənistanda isə 68,97 faiz təşkil edib.







***Kapital qoyuluşları, mlrd. dollarla*** - 2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycanda orta illik kapital qoyuluşları 11,54 mlrd. dollar, 2021-ci ildə ən aşağı göstərici 9,36 mlrd. dollar, 2014-cü ildə yüksək 20,70 mlrd. dollar, 2022-ci ildə 9,95 mlrd. dollar olub. Müqayisə üçün, 2022-ci ildə 124 ölkə üzrə qlobal orta göstərici - 94,41 mlrd. dollar, Gürcüstanda 18,91 mlrd. dollar, Ermənistanda isə13,45 mlrd. dollar təşkil edib.

**Ev təsərrüfatlarının istehlakı, mlrd. ABŞ dolları** - Bu göstəriciyə əsasən, Dünya Bankı 2014-2022-ci illəri əhatə edən dövr üçün məlumatları təqdim edir. Bu dövr ərzində Azərbaycan üçün orta hesabla 27,24 mlrd. dollar, 2016-cıı ildə ən aşağı göstərici - 9,72 mlrd. dollar, 2022-ci ildə yüksək - 34,16 mlrd. dollar olub. Müqayisə üçün, 2022-ci ildə 124 ölkə üzrə qlobal orta göstərici - 215,23 mlrd. dollar, Gürcüstanda 18,91 mlrd. dollar, Ermənistanda isə13,45 mlrd. dollar təşkil edib.







***İnflyasiya: İstehlak qiymətləri indeksində faiz dəyişikliyi*** - 2015-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində inflyasiya 2018-ci ildə ən aşağı - 7,20 faiz, 2022-ci ildə isə ən yüksək - 13,90 faiz olub. Müqayisə üçün, 2022-ci ildə inflyasiya Gürcüstanda 11,90 faiz, Ermənistanda isə 8,6 faiz təşkil edib.







***Kölgə iqtisadiyyatının ÜDM-də payı, faizlə*** -2014-2020-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində kölgə iqtisadiyyatının ÜDM-də payı üzrə orta illik göstərici 43,41 faiz, 2014-cü ildə ən aşağı - 42,15 faiz, 2020-ci ildə ən yüksək - 52,19 faiz olub. Müqayisə üçün, 2015-ci ildə 158 ölkədə qlobal orta göstərici - 60,61 faiz, 2020-ci ildə Gürcüstanda dünyada ən yüksək 64,87 faiz, Ermənistanda isə 42,59 faiz təşkil edib.

## II. AZƏRBAYCAN İQTİSADİYYATININ STRUKTURU

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sahələrdə əlavə dəyər, ÜDM-də payı %-lə | 53,59 | 44,89 | 47,56 | 49,70 | 52,25 | 48,82 | 41,96 | 48,82 | 55,94 |
| Sənayedə əlavə dəyər, ÜDM-də payı %-lə | 4,71 | 4,99 | 4,89 | 4,70 | 4,62 | 5,00 | 6,10 | 6,42 | 5,01 |
| Xidmət sferasında əlavə dəyər, ÜDM-də payı %-lə | 33,62 | 40,00 | 38,69 | 37,58 | 34,80 | 36,49 | 42,35 | 37,70 | 32,20 |
| Ev təsərrüfatlarının əmanətləri, ÜDM-də payı %-lə i | - | 28,12 | 22,60 | 29,03 | 32,15 | 28,57 | 23,57 | 32,53 | 42,47 |
| Sahələrdə əlavə dəyər, mlrd. ABŞ dolları | - | 23,83 | 18,01 | 20,31 | 24,62 | 23,52 | 17,91 | 26,76 | 44,03 |
| Sənayedə əlavə dəyər, mlrd. ABŞ dolları | - | 2,65 | 1,85 | 1,92 | 2,18 | 2,41 | 2,60 | 3, 52 | 3,94 |
| Xidmət sferasında əlavə dəyər, mlrd. ABŞ dolları | - | 21,23 | 14,65 | 15,36 | 16,39 | 17,58 | 18,08 | 20,67 | 25,35 |
| Ev təsərrüfatlarının əmanətləri, mlrd. ABŞ dolları | - | 14,93 | 8,56 | 11,86 | 15,15 | 13,77 | 10,06 | 17,84 | 33,43 |

| | **Azərbaycan** | | **Gürcüstan** | | **Ermənistan** | | **İl** | **Reytinq təşkilatı** |
|---|---|---|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə** | **Sıralama** | **Qiymətləndirmə** | **Sıralama** | **Qiymətləndirmə** | **Sıralama** | | |
| Sahələrdə əlavə dəyər, ÜDM-də payı %-lə | 55,94 | 7 | 21,54 | 95 | 25,56 | 72 | 2022 | WB |
| Sənayedə əlavə dəyər, ÜDM-də payı %-lə | 5,01 | 109 | 9,68 | 86 | 11,71 | 69 | 2022 | WB |
| Xidmət sferasında əlavə dəyər, ÜDM-də payı %-lə | 32,2 | 140 | 59,9 | 44 | 55,27 | 70 | 2022 | WB |
| Ev təsərrüfatlarının əmanətləri, ÜDM-də payı %-lə | 42,47 | 3 | 76,8 (2021) | | 17,62 | 63 | 2022 | WB |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Sahələrdə əlavə dəyər, mlrd. ABŞ dolları | 44,03 | 51 | 5,3 | 103 | 4,99 | 106 | 2022 | WB |
| Sənayedə əlavə dəyər, mlrd. ABŞ dolları | 3,94 | 82 | 2,38 | 91 | 2,28 | 92 | 2022 | WB |
| Xidmət sferasında əlavə dəyər, mlrd. ABŞ dolları | 25,35 | 76 | 14,74 | 91 | 10,78 | 97 | 2022 | WB |
| Ev təsərrüfatlarının əmanətləri, mlrd. ABŞ dolları | 33,43 | 43 | 1,6 (2021) | | 3,44 | 73 | 2022 | WB |







***Sahələrin ÜDM-də payı, faizlə*** -2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində 2020-ci ildə bu göstərici ən aşağı - 49,28 faiz, 2022-ci ildə isə ən yüksək - 55,94 faiz faiz olub. Müqayisə üçün, 2022-ci ildə dünyanın 146 ölkəsi üzrə orta göstərici - 27,65 faiz, Ermənistanda 25,56 faiz, Gürcüstanda isə 21,54 faiz təşkil edib.

***Sənayedə əlavə dəyərin ÜDM-də payı, faizlə*** -2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə orta göstərici - 5,16 faiz, 2017-ci ildə ən aşağı - 4,70 faiz, 2021-ci ildə ən yüksək - 6,82 faiz, 2022-ci ildə isə 5,01 faiz olub. Müqayisə üçün, 2021-ci ildə 125 ölkə üzrə qlobal orta göstərici - 13,12 faiz, Ermənistanda 11,71 faiz, Gürcüstanda isə 9,68 faiz təşkil edib.

***Xidmətlərin ÜDM-də payı, faizlə*** -2014-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üzrə orta göstərici - 37,05 faiz, 2022-ci ildə ən aşağı - 32,20 faiz, 2020-ci ildə ən yüksək - 42,35 faiz, 2021-ci ildə isə 37,63 faiz olub. Müqayisə üçün, 2021-ci ildə 168 ölkə üzrə qlobal orta göstərici - 55,43 faiz, Gürcüstanda 59,90 faiz, Ermənistanda isə 55,27 faiz təşkil edib.

***Ev təsərrüfatlarının əmanətləri, ÜDM-də payı %-lə -*** Dünya Bankı 2015-2022-ci illəri əhatə edən dövr üçün məlumatları təqdim edir. Bu dövr ərzində Azərbaycan üçün orta göstərici - 29,88%, 2016-cı ildə ən aşağı - 22,60 faiz, 2022-ci ildə ən yüksək - 42,47 faiz olub. Müqayisə üçün, 2022-ci ildə 85 ölkə üzrə qlobal orta göstərici - 23,91 faiz, Gürcüstanda 76,80 faiz, Ermənistanda isə 17,62 faiz təşkil edib.







***Sahələrdə əlavə dəyər, mlrd. ABŞ dolları*** - 2015-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycanda orta illik əlavə dəyər 24,87 mlrd. dollar, 2020-ci ildə ən aşağı göstərici - 17,91 mlrd. dollar, 2022-ci ildə ən yüksək - 44,03 mlrd. dollar təşkil edib. Müqayisə üçün, 2022-ci ildə 146 ölkə üzrə qlobal orta göstərici - 146,14 mlrd. dollar, Gürcüstanda 5,3 mlrd. dollar, Ermənistanda isə 4,99 mlrd. dollar təşkil edib.

***Sənayedə əlavə dəyər, mlrd. ABŞ dolları*** - 2015-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycanda orta illik əlavə dəyər 2,19 mlrd. dollar, 2016-cı ildə ən aşağı göstərici - 1,81 mlrd. dollar, 2022-ci ildə ən yüksək - 3,94 mlrd. dollar təşkil edib. Müqayisə üçün, 2022-ci ildə 125 ölkə üzrə qlobal orta göstərici - 93,19 mlrd. dollar, Gürcüstanda 2,38 mlrd. dollar, Ermənistanda isə 2,28 mlrd. dollar təşkil edib.

***Xidmət sferasında əlavə dəyər, mlrd. ABŞ dolları - B***u göstəriciyə əsasən, Dünya Bankı 2015-2022-ci illəri əhatə edən dövr üçün məlumatları təqdim edir. Bu dövr ərzində Azərbaycan üçün xidmət sferasında orta illik əlavə dəyər 18,66 mlrd. dollar, 2016-cı ildə ən aşağı göstərici - 14,65 mlrd. dollar, 2022-ci ildə ən yüksək - 25,35 mlrd. dollar təşkil edib. Müqayisə üçün, 2022-ci ildə 145 ölkə üzrə qlobal orta göstərici - 253,04 mlrd. dollar, Gürcüstanda 14,74 mlrd. dollar, Ermənistanda isə 10,78 mlrd. dollar təşkil edib.

***Ev təsərrüfatlarının əmanətləri, mlrd. ABŞ dolları*** - Bu göstəriciyə görə, Dünya Bankı 2015-2022-ci illəri əhatə edən məlumatları təqdim edir. Bu dövr ərzində Azərbaycanda ev təsərrüfatlarının əmanətlərinin orta illik dəyəri 15,7 mlrd. dollar, 2016-cı ildə ən aşağı - 8,56 mlrd. dollar, 2022-ci ildə ən yüksək - 33,43 mlrd. dollar olub. Müqayisə üçün, 2022-ci ildə bu göstərici 253,04 mlrd. dollar, Ermənistanda 3,44 mlrd. dollar, Gürcüstanda isə 1,6 mlrd. dollar təşkil edib.

## III. İNNOVASİYA TƏDBİRLƏRİ

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İnnovasiya İndeksi (0-100) | | 30,10 | 29,60 | 30,60 | 30,20 | 30,20 | 27,20 | 28,40 | 21,40 |
| R&D xərcləri (Tədqiqat və inkişaf xərcləri), ÜDM-də payı %-lə | 0,21 | 0,22 | 0,21 | 0,18 | 0,18 | 0,20 | 0,22 | - | - |
| İnformasiya texnologiyalarının ixracı, malların ümumi ixracında payı faizlə | 0,01 | 0,02 | 0,02 | 0,02 | 0,02 | 0,02 | 0,14 | 0,02 | - |
| Yüksək texnologiyaların ixracı (hay-tek) | 33,92 | 13,93 | 11,73 | 14,07 | 21,18 | 28,00 | 33,91 | 22,21 | - |
| Yüksək texnologiyaların ixracı, hazır məhsulların ixracında payı faizlə | 7,73 | 3,90 | 2,81 | 3,30 | 4,35 | 4,95 | 7,07 | 2,10 | - |
| Rezidentlərin patent müraciətləri | 168,0 | 184,0 | 144,0 | 204,0 | 155,0 | 147,0 | 90,00 | - | - |

| | Azərbaycan | | Gürcüstan | | Ermənistan | | İl | Reytinq təşkilatı |
|---|---|---|---|---|---|---|---|---|
| | Qiymətl əndirmə | Sıra lama | Qiymətl əndirmə | Sıra lama | Qiymətl əndirmə | Sıra lama | | |
| İnnovasiya İndeksi (0-100) | 21,4 | 93 | 27,9 | 73 | 26,6 | 80 | 2022 | Cornell University, INSEAD, and WIPO |
| R&D xərcləri (Tədqiqat və inkişaf xərcləri), ÜDM-də payı %-lə | 0,22 | 56 | 0,3 | 49 | 0,21 | 57 | 2020 | UN |
| İnformasiya texnologiyalarının ixracı, malların ümumi ixracında payı faizlə | 0,02 | 121 | 1,5 | 54 | 0,51 | 75 | 2021 | UN |
| Yüksək texnologiyaların ixracı (hay-tek) | 22,21 | 75 | 16,89 | 78 | 37,56 | 69 | 2021 | UN |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Yüksək texnologiyaların ixracı, hazır məhsulların ixracında payı faizlə | 2,1 | 77 | 1,61 | 83 | 5,96 | 58 | 2021 | UN |
| Rezidentlərin patent müraciətləri | 90 | 68 | 81 | 71 | 63 | 77 | 2020 | WIPO |







***İnnovasiya İndeksi (0-100), balla*** -2015-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycanda orta illik bal 28,46, 2022-ci ildə ən aşağı göstərici - 21,40, 2017-ci ildə ən yüksək 30,60 bal olub. Müqayisə üçün, 2021-ci ildə 128 ölkə üzrə qlobal orta göstərici - 32,09 bal, Gürcüstanda 27,9 bal, Ermənistanda 26,6 bal təşkil edib.







***İnformasiya texnologiyalarının ixracı, malların ümumi ixracında payı faizlə*** - 2015-2022-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üçün orta illik göstərici 0,03 faiz, 2014-cü ildə ən aşağı - 0,01 faiz, 2022-ci ildə 0,14 faiz, qalan illərdə 0,02 faiz olub. Müqayisə üçün, 2021-ci ildə 130 ölkə üzrə qlobal orta göstərici - 4,19 faiz, Gürcüstanda 1,5 faiz, Ermənistanda isə 0,51 faiz təşkil edib.







***R&d xərcləri (Tədqiqat və inkişaf xərcləri), ÜDM-də payı %-lə*** - 2014-2020-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üçün orta illik göstərici 0,20 faiz, 2017-2018-ci illərdə ən aşağı - 0,18 faiz, 2015 və 2022-ci ildə ən yüksək - 0,22 faiz olub. Müqayisə üçün, 2020-ci ildə 67 ölkə üzrə qlobal orta göstərici - 1,30 faiz, Gürcüstanda 0,3 faiz, Ermənistanda isə 0,21 faiz təşkil edib.







***Yüksək texnologiyaların ixracı (hay-tek)*** - 2014-2021-ci illər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üçün orta illik göstərici 22,37 mln. dollar, 2016-cı ildə ən aşağı - 11,73 mln. dollar, 2014 və 2022-ci ildə ən yüksək - 33,93 və 33,91 mln. dollar olub. Müqayisə üçün, 2021-ci ildə 98 ölkə üzrə qlobal orta göstərici - 28,736 mlrd. dollar, Ermənistanda 37,56 mln. dollar, Gürcüstanda isə 16,89 mln. dollar təşkil edib.

***Yüksək texnologiyaların ixracı, hazır məhsullar ixracında payı faizlə*** - 2014-2021-ciillər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üçün orta illik göstərici 4,53 faiz, 2021-ci ildə ən aşağı - 2,10 faiz, 2014 və 2020-ci ildə ən yüksək - 7,73 və 7,07 faiz olub. Müqayisə üçün, 2020-ci ildə 97 ölkə üzrə qlobal orta göstərici - 10,77 faiz, Ermənistanda 5,96 faiz, Gürcüstanda isə 1,61 faiz təşkil edib.







***Rezidentlərin patent müraciətləri*** - 2014-2020-ciillər üzrə məlumatlar əks etdirilib. Bu dövr ərzində Azərbaycan üçün orta illik göstərici 156 patent müraciəti, 2022-ci ildə ən aşağı - 90 müraciət, 2017-ci ildə ən yüksək - 204 müraciət olub. Müqayisə üçün, 2020-ci ildə 117 ölkə üzrə qlobal orta göstərici - 19040 müraciət, Gürcüstanda 81 müraciət, Ermənistanda isə 63 müraciət təşkil edib.

## IV. DÖVLƏT XƏRCLƏRİ VƏ VERGİLƏR

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət xərcləri, mlrd. ABŞ dolları | 8,19 | 6,59 | 4,86 | 4,63 | 4,93 | 5,36 | 6,92 | 7,60 | 8,60 |
| Dövlət xərcləri, ÜDM-də payı %-lə | 10,89 | 12,41 | 12,83 | 11,34 | 10,47 | 11,12 | 16,22 | 13,87 | 10,93 |
| Büdcə saldosu, ÜDM-də payı %-lə | 2,74 | -4,81 | -1,15 | -1,33 | 5,50 | 8,94 | -6,68 | 4,10 | 5,97 |
| Dövlət borcu, ÜDM-də payı %-lə | | 17,98 | 20,61 | 22,51 | 18,68 | 17,66 | 21,33 | 26,35 | 17,34 |
| Vergi gəlirləri, ÜDM-də payı %-lə | 14,21 | 15,60 | 14,56 | 13,16 | 12,97 | 14,22 | 16,19 | 13,42 | - |
| Vergi dərəcəsi, mənfəətdə payı %-lə | 40,0 | 39,8 | 39,8 | 39,8 | 41,2 | 40,7 | - | - | - |
| Vergi bəyannamələrinin hesablanması vaxtı, saatlar | 195 | 195 | 195 | 195 | 159 | 159 | - | - | - |
| Müəssisələrin ödədiyi vergilərin sayı | 7 | 7 | 6 | 6 | 7 | 9 | - | - | - |
| Mallar və xidmətlər üzrə vergilər, ümumi gəlirdə payı %-lə | 17,61 | 23,67 | 22,40 | 19,49 | 17,74 | 18,05 | 23,04 | 18,99 | - |
| Beynəlxalq Ticarət Vergiləri, ümumi gəlirdə payı %-lə | 2,88 | 3,07 | 3,39 | 3,63 | 3,36 | 3,71 | 4,36 | 3,83 | - |
| Gəlir vergisi, mənfəət və kapital artımı: gəlirdə payı %-lə | 13,98 | 17,29 | 14,83 | 13,48 | 11,07 | 9,65 | 13,16 | 11,70 | - |
| Xarici yardım, mln. dollar | 216,7 | 69,58 | 79,43 | 123,5 | 87,42 | 119,1 | 122,7 | 9,24 | - |

| | Azərbaycan | | Gürcüstan | | Ermənistan | | İl | Reytinq təşkilatı |
|---|---|---|---|---|---|---|---|---|
| | Qiymətləndirmə | Sıralama | Qiymətləndirmə | Sıralama | Qiymətləndirmə | Sıralama | | |
| Dövlət xərcləri, mlrd. ABŞ dolları | 8,6 | 67 | 3,09 | 92 | 2,87 | 94 | 2022 | WB |
| Dövlət xərcləri, ÜDM-də payı %-lə | 10,93 | 100 | 12,56 | 88 | 14,7 | 78 | 2022 | WB |
| Büdcə saldosu, ÜDM-də payı %-lə | 5,97 | 7 | -3 | 67 | -2,23 | 59 | 2022 | WB |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Dövlət borcu, ÜDM-də payı %-lə | 17,34 | 117 | 41,3 | 92 | 102,59 | | 2022 | WB |
| Vergi gəlirləri, ÜDM-də payı %-lə | 13,42 | 75 | 22,03 | 26 | 21,73 | 28 | 2021 | WB |
| Vergi dərəcəsi, mənfəətdə payı %-lə | 40,7 | 77 | 9,9 | 182 | 22,6 (2019) | | 2021 | WB |
| Vergi bəyannamələrinin hesablanması vaxtı, saatlar | 159 | 121 | 216 | 80 | 264 | 52 | 2019 | WB |
| Müəssisələrin ödədiyi vergilərin sayı | 9 | 134 | 5 | 176 | 15 | 104 | 2019 | WB |
| Mallar və xidmətlər üzrə vergilər, ümumi gəlirdə payı %-lə | 18,99 | 92 | 52,07 | 6 | 52,48 | 5 | 2021 | WB |
| Beynəlxalq Ticarət Vergiləri, ümumi gəlirdə payı %-lə | 3,83 | 36 | 0,56 | 65 | 5,13 | 30 | 2021 | WB |
| Gəlir vergisi, mənfəət və kapital artımı: gəlirdə payı %-lə | 11,7 | 87 | 31,02 | 29 | 35,25 | 18 | 2021 | WB |
